# ABŞERON YARIMADASININ TORPAQ EHTİYATLARININ KOSMİK TƏSVİRLƏR VƏ CİS TEXNOLOGİYALAR VASİTƏSİLƏ EKOLOJİ VƏZİYYƏTİNİN TƏDQİQİ

**Həmzəyeva İ.K.**

*Aerokosmik Agentliyi, Ekologiya İnstitutu*
*chingiz.gamzaev@mail.ru*

Abşeron yarımadası əslində çox zəngin biomüxtəlifliyə malikdir. Mütəxəssislərin fikrincə Azərbaycan florasının bitki müxtəlifliyinin 22%-i məhz Abşeron yarımadasının payına düşür. Aprel-may aylarında Abşeron yarımadası gözəl mənzərələri ilə Alp çəmənliklərindən heç də geri qalmır. Həmin vaxt burada 1 $m^2$ əraziyə 10-12 bitki növü düşür.

Abşeron yarımadasında meşə örtüyünün yaranması üçün əlverişli deyil. Tapılan daşlanmış bitki qalıqları göstərir ki, qədimdə Abşeronun iqlimi mülayim və təbiəti savanna tipli olmuşdur. Ağac və kollar yabanı halda hələ qədimdən mövcud olmuşdur. Binəqədi gölü ətrafında olan çöküntülərdə qalan bitki qalıqları və paleontoloji qazıntılar imkan verir ki, qədim dövrlərdə buralarda meşə bitkiləri örtüyünün olması haqqında fərziyyələr yürüdək.

**NDVI** (Normalized Difference Vegetation Index) - bitkinin nisbi normalaşma indeksi – aktiv fotosintetik biokütlənin (adətən vegetasiya indeksi adlandırılır) sadə miqdar göstəricisidir. Bu bitki örtüyünün kəmiyyət qiymətləndirməsi və problemlərini həll etmək üçün ən geniş yayılmış indekslərdən biridir.

Bu da aşağıdakı düsturla hesablanır:

$$NDVI = \frac{NIR - RED}{NIR + RED}$$

Burada ***NIR***– yaxın Infraqırmızı sahə spekrində əksolunma, mkm; ***RED***-qırmızı sahə spekrində əksolunma, mkm.

Bu düstura əsasən, təsvirin müəyyən bir nöqtəsində bitki sıxlığı (NDVI) qırmızı və infraqırmızı diapazonda əks olunan işığın intensivlik fərqi ilə onların intensivliklərin cəmin nisbəti kimi müəyyən olunur.

Bitki örtüyünün sağlamlığının və sıxlığın artması (yəni, onun pozulmamış ekosistemində olan vəziyyətə yaxınlaşması) ilə əlaqədar fotosintez prosesi nə qədər güclü gedərsə bir o qədər infraqırmızı sahədə onun əks olunmanın radiasiya faizi çoxdur, yəni - bir o qədər NDVİ indeksinin qiyməti yüksəkdir. Bu NDVİ indeksin analizinə görə bitki örtüyünün xüsusiyyətini və növünü tayin etmə mümkünlüyünü verir.




**Şəkil 5. Abşeron rayonunun peyk məlumatlar əsasında NDVİ göstəricisini əks etdirən təsvir**

Abşeron rayonunun peyk məlumatları əsasında NDVİ göstəricisini əks etdirən xəritə-sxem tərtib olunmuşdur.

Aldığımız təsvirə əsasən 5 sinif üzrə siniflənmişdir. Əks olunan şərti işarələrdə yuxarıdan aşağıya doğru siniflər 1-ci su obyektlərini, 2-ci və 3-cü dağ növlərini, qumları və qarı, 4-cü meşəsiz əraziləri, 5-ci isə kolluqlardan və otlaqlardan indeksin aşağı qiymətində yuxarı qiymətində isə seyrəmiş ağac və kol bitkilərini əks etdirir.